Ədalət .- 2022.- 14 may.- S.9.

# REGİON POEZİYASI



*Nizaməddin ŞƏMSİZADƏ*

**Azərbaycanın poeziyası da təbiəti kimi əlvan və zəngindir. Dünyada olan on bir iqlimindən doqquzu vətənimizdə mövcuddur. Bəlkə elə buna görə də bizim nəzəri və bədii təfəkkürümüz zəngindir, cəmiyyətimiz polienikdir. Türkəsilli xalq olaraq biz həm də dünyaya tolerantlıq nümunəsi veririk, tarixən bizə pənah gətirən, xalqları və etnik azlıqları duz-çörəklə, gülər üzlə qarşılamışıq, onlara tarixdə yaşamaq üçün rahat şərait, demokratiya və mədəniyyət vermişik. Bu keyfiyyət regionlarımızda ərsəyə gələn poeziyamızda da bədii-estetik əlamətə kimi təzahür edir. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin bir neçə il öncə irəli sürüb əsaslandırdığı Regionların inkişafı dövlət proqramı bütün sahələrə, o cümlədən bədii yaradıcılıq prosesinə də təsirsiz qalmayıb. Bu gün regionlarımızda - Naxçıvanda, Lənkəranda, Gəncədə, Qazaxda, Qubada, Abşeronda, Şəki-Zakatalada, Sumqayıtda, Şirvan-Muğanda və s. ədəbi mühitlər mövcuddur, xüsusən poeziya intensiv inkişaf edir.**

Ədəbi mühit həm ədəbiyyat tarixinin, həm də müasir ədəbi prosesin tərkib hissəsidir. Bu baxımdan regionlarda ədəbi prosesi təşkil etmək, ədəbi mühitin estetik və poetik təşəkkülünə rəvac vermək Azərbaycan Yazıçılar Birliyinim regional bölmələrinin öhdəsinə düşən əsas vəzifədir. Fəqət, bu gün - ölkəmizdə Müzəffər Vətən müharibəsindən sonra yeni tarixi gerçəklik yarandığı dövrdə bu bölmələrin fəaliyyəti yarıtmazdır və onlar formal olaraq mövcuddur... mənə elə gəlir ki, AYB-nin "Bədii Ədəbiyyatı təbliğ Bürosu"-nun fəaliyyətini genişləndirmək lazımdır.

46 ildir intensiv ədəbi tənqidlə məşğul oluram. Amma hiss edirdim ki, bu sahədəki fəaliyyətimdə bir boşluq var: tək-tük faktları çıxmaq şərti ilə. Mən regionlarımızdakı ədəbi prosesə diqqət yetirməmişəm.

Halbuki, Azərbaycanın regionlarında saf və istedadlı ədəbi qüvvələr var, uzun müddətdir ki, onlar, futbol termini ilə desək, ovsayt-oyundan kənar vəziyyətdə qalıblar. Bu il başlananda mən onların bəzilərı ilə görüşüb kitablarını aldım, arzularını dinləyib bu barədə yazmağa qərar verdim...

Qədim Azərbaycan ədəbiyyatında indi kara gəlməyən mədhiyyə təqdir olunan janrlardan idi. Görkəmli şair QətranTəbrizi (1012-1038) öz mədhiyyələri ilə məşhur olmuşdur. Fəqət, bu janr ifrata gəlib çıxdığı üçün (əsasən şahlara və hökmdarların tərəfinə həsr olunduğu üçün!) orta əsrlərdə artıq bədii-estetik nüfuzunu itirməyə başladı. Orta əsrlərdə ədəbi-tarixi prosesdə başqa bir problem-ifrat yarandı: ümumən, şeirə nəzm deyilməyə başlandı. Hətta Məhəmməd Füzuli kimi dahi bir qitəsində şairlə nazimi-şeir qoşanı bir araya gətirir.

*Qəzəldür səfabəxşi əhli-nəzər*
*Qəzəldür güli-bustani hünər*
*Qəzəl bildirir şairin qüdrətini*
*Qəzəl artırır nazimin şöhrətini*

**(Füzuli. Əsərləri, 6 cilddə, I c. 1996, s.28).**

Bu gün ədəbi prosesdə əsl şairlərlə, həqiqi poeziya ilə nəzm yazanları -şeir qoşanları, qafiyəpərdazları bir-birindən ayırmaq çətinləşib. Mənim şair dostum Oqtay Rza (Allah rəhmət eləsin) bir rübaisində deyirdi:

*Atəşkəs var sənətdə,*
*Tənqidçilər atışmır.*
*Şeir yazan çoxalıb,*
*Ancaq şair çatışmır.*

Bu rübai müasir şeir prosesini yaxşı səciyyələndirir: AYB-nin üzvlərinin azı 70 faizi nəzm yazanlar, şeir qoşanlardır.

Dahi Nizami Gəncəvi yazıb: "Əvvəl peyğəmbərlər, sonra şairlər". Şairlər Peyğəmbərlərdən sonra Allaha ən yaxın olan kəslərdir. Böyük tənqidin V.Belinski isə belə deyib: "Şair sözü yüksək və müqəddəs bir sözdür. Bu sözdə ölməyən, ədəbi şöhrət var". Şair sözünün müqəddəsliyin qoruyaq "ərşdən hədiyyə gəlib, qəlbimizə nazil olan" , "ilahi feyzdən bir xəzinə olan", "yaradanın mədhi-sənası, nəğməsi" olan (Füzuli) SÖZü urvatdan salan nəzm əhlinə şair deyb onu müqəddəsliyini göydən yerə endirməyək. Mən həmişə demişən: ədəbiyyatında Füzulisi olan xalqın şairi olmaq çətindir. Müasir texnokratiya dövrü də elmli şeir, intellektual poeziya tələb edir. Bu sahədə də dahi Füzuli meyarı və örnəyi var: "elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur" (I c. s.27), "şeir fəziləti də bir ayrı elmdir" (III c. s. 13). Bütün bunları nəzərə alsaq "şeir yazanın adı şeir vasitəsilə aləm səhifəsində əbədi olaraq qalır" (III c.s.14).

Böyük mütəfəkkir, dramaturq M.F.Axundzadə "Nəzm və nəsr haqqında" məqaləsində şeir və nəzm probleminə belə bir izah verir: "Tarixi - hicridən bu zamana qədər milləti-islam arasında bir kimsə şeir ilə nəzmə fərq verməyib, hər nazimin adına bərxilafı-həqq şair deyiblər. Şeir əlahiddə bir bəxşi-ilahidir və maddeyi-qabiliyyəti-şair xudadadir və təhsil və tərbiyəm o maddənin ancaq nibisatına və əşarın artıq ziynətinə bais olar" (M.F.Axundov. Əsərləri. Üç cilddə, II c. Azərbaycan SSR EA nəşr. Bakı, 1961, s.202).

Mirzə Fətəli də "Füzuli şair deyil..." (s.203) deyə bəyənmədiyi Füzulinin ardınca gedərək şeiri "Əlahiddə bir bəxş-ilahi" adlandırırdı... Bütün bu mülahizələr kontekstində region poeziyasına bir nəzər salaq:

Arzu Baxışoğlu - 1982-ci ildə Gədəbəyin Şınıx bölgəsində - Mor-mor kəndində anadan olub, həmin kənd orta məktəbində direktor müavini işləyib, ixtisasca riyaziyyatçı, təbiətcə şairdir. Onun "Birincim mənim" (2016) şeirlər kitabında dağlar oğluna məxsus istedadı həkk olunub:

*Kimin nə dərdi var, danışsın mənə*
*Tanrının dərdçəkən qatarıyam mən*
*Haqqın-ədalətin önündə duran,*
*Uçulmaz, sökülməz hasarıyam mən.*

Beləliklə, Arzu elə ilk şeirdən özünü "Tanrının dərdçəkən qatarı" , "Haqqın, ədalətin önündə duran" çətin və şərəfli yolun müsafiri kimi təqdim edir. Əlbəttə, onun şeirlərini oxuyub heyrətlənmədim, fəqət məni bu riyaziyyatçı şairin söz fəhmi, bəzi "köhnə" sözləri yeni görüm, məna verməyi cəlb etdi: Arzu vətən şairi, bizim dağların ucalığını və əzəmətini, bulaqların saflığını, durna qatarlarının daşıdığı həsrəti tərənnüm edir:

*Dağların yarası dərindi, Arzu*
*Gəl apar könlümü dağlara sarı.*

Burada "sarı" sözünü ustalıqla iki mənada işlədir: bir dağlara tərəf, ikinci dağların dağ basılmış yarasını sarpmaq! Özü də şair sarğı kimi öz könlünü göndərir. Şair haqq-ədalət, nəcib kədər saflığı tərənnüm edir. "Yaşayıram yana-yana dünyanı" şeirində belə misralar yer alır:

*Haqqa köklənibdi sözüm, bayatım*
*Varım, dövlətimdi təmiz həyatım*
*Pakdı, ləkəsizdi mənəviyyatım*
*Vermərəm şöhrətə, şana dünyamı.*

Belə şeirlər riyaziyyat müəllimi Arzu Baxışoğlunun dərs dediyi nümunəvi mənəviyyat örnəyidir.

Arzu Baxışoğlunun şeirlərində bizim ustad aşıqlardan ənənə olaraq gələn bir söz oynatmaq, sözün eşidilməyən mənalarına varmaq istəyi yer alıb. Xüsusilə, Aşıq Ələsgərin üslub tərzi yeni mənada görünür: " O da dağdı, bu da dağdı" şeirində oxuyuruq:

*Dərd axıdır kölgə çayda*
*Qəm becərir qışda, yayda*
*Sinəmdəki dərdim boyda*
*O da dağdı, bu da dağdı.*

Poeziya tariximizdə M.V.Vidadinin, Q.B.Zakirin vətən həsrəti ifadə edən klassik "Durnalar" şeirləri var. Arzunun da durnalar şeiri klassik ənənələrə layiq əsərdir:

*Ötəri keçəndə Təbrizə baxın,*
*Siz də özünüzü yandırın-yaxın.*
*Vətən torpağına bir lələk taxın,*
*Bəlkə bir vaxt kara gələ durnalar.*

Bu bircə bənddə nəcib kədər, həsrət, bütöv Azərbaycan dərdi poetikləşib. Şairin estetik idealı saf və aydındır.

İskəndər Fərhadoğlu - (Səklikov) 1955-ci ildə Goranboy rayonunun Səfkürd kəndində anadan olub. 1978-ci ildə Gəncə Dövlət Universitetinin kimya-biologiya fakültəsini bitirib. Hazırda Səfkürd kənd orta məktəbində direktor müavini işləyir. İskəndər müəllim həm də kimyaçı-bioloq şairdir. Fəqət onun fəaliyyət sahəsi bunımla məhdudlaşmır. O Azərbaycan Respublikasının Əməkdar müəllimi kimi öz çoxillik təcrübəsinə əsaslanaraq "Pedaqoji terminlər lüğəti" (2011) çap etdirib. Lüğət "məktəbşünaslıqda, tədis prosesində, təhsildə və pedaqoji ədəbiyyatda, dərsliklərdə və mətbuatda işlənən" 2600-dən artıq terminin işlənmə yerini, məzmununu, tarixini əks etdirir. 408 səhifədən ibarət olan fundamental vəsait müstəqil Azərbaycanda təhsilin təşkili və inkişafına səmərəli nəzəri və metodiki təsir göstərmək imkanına malikdir.

Bir pedaqoji və filoloji elmlər doktoru, professorun, yaxud elmi-tədqiqat institutunun bir şöbəsinin kollektivi görə biləcək (və görməli!) bu işi regionda yaşayan kənd müəllimi zəhmət, istedad və uğurla həyata keçirib.

2011-ci ildə çap olunmuş "Xalq pedaqogikasından bir damla" kitabının davamı olaraq İ.Fərhadoğlu 2019-cu ildə "Babamın söz mücrüsündən" kitabını çap etdirib. Bu əsər arı güllərdən bal yığan kimi, qədim aforizm, zərbi-məsəl və rəvayətlərdən istifadə etməklə özünün Həyat tərbiyəsində, pedaqoq kimi fəaliyyəti zamanında əldə etdiyi fikir və mülahizələri əks etdirir. İ.Fərhadoğlunun "Pedaqoji terminlər lüğəti", "Babamın söz mücrüsündən", "Xalq pedaqogikasından bir damla", "Xalq təbabətindən bir damla", "Şagird üçün qısa izahlı lüğət" əsərləri və s. göstərir ki, İ.Fərhadoğlu regionda böyük maarifçilik işi aparan, elmi-pedaqoji və mənəvi mühitin saflığını, tarazlığını qoruyan fədakar ziyalılarımızdandır.

İ.Fərhadoğlunu mən bir şair kimi seçmişəm, onun 1993-cü ildə çap olunmuş "Arı kəşfi" və 2010-cu ildə işıq üzü görmüş "İnsan zaman heykəlidir" şeir kitabları ilə tanışam. "Arı kəşfi" kitabına toplanan şeirlər lakonik deyim, aforizm təsiri bağışlayır, həyatı dərindn müşahidə edən şairin tizfəhm bədii qənaətləridir:

*Düşüb nadan əlinə*
*Bir dahinin əsəri*
*Bir dəfə oxunmayıb*
*Uzun illərdən bəri*
*Rəfdə dustaq qalıb o*
*Bir görün neçə ildi?!*
*Çünki rəfın rənginə*
*Çox uyğun gəlir rəngi.*

Bütün kitab belə lakonik, sərrast deyimlərdən ibarətdir:

Kitabları kitab rəfmdə dustaq edən, bir dəfə də olsun üzünü açıb oxumayan, hər şeyim var, qoy kitabım da olsun həvəsi ilə yaşayan imkanlı nadanların obrazını şair yaxşı yaradıb.

Soykökünə, tarixə, yaddaşa bağlılıq İskəndər Fərhadoğlunun təbiətindən, xislətindən gələn bir məziyyət kimi şeirlərində də öz ifadəsini tapır. Babaya, ataya, anaya, ümumən böyüyə hörmət və ehtiram türk millətinin sınağından süzülüb gələn mənəvi-əxlaqi keyfiyyətidir. İskəndər "Babam" şeirində deyir:

*Gözlər hərarətli, baxışlar dalğın,*
*Sözlərə kövrəklik, həzinlik hopub.*
*Xəyal təqviminin vərəqi solğun,*
*Elə bil yüz ildir tarixdən qopub.*

Burada koloritlə bərabər həzin bir romantika var. Xəyalı reallıqdan üstün tutmaq, xatirələrin ümid dolu aləminə varmaq məsələsi İskəndər Fərhadoğlunun səciyyəvi əlamətidir.

O hər şeyin mahiyyətinə varmağa, ən əsas olanı üzə çıxarmağa çalışır.

*Bir pərdə aşaqi vüsal həsrəti*
*Bir pərdə yuxarı hicran yanqısı -*

İskəndər "Dilqəm" şeirində bu musiqinin mübhəm aləmini belə zikr edir. "Özüm zirvənin özüyəm" (1996) şeirində dəqiq və maraqlı, gözlənilməz misralar, orijinal deyimlər var: "Xatirələr şirin yuxu"; // "Arzular qövsi-qüzehdi"; "Özüm həyatımdan baha"; // Həyat yanımda bir behdi"; "Çoxdan mən etmirəm yas"; // "Mən də mənə olmuşam yad". Bu beytlər İskəndərin sözə vaqif olduğunu, sözün imkanlarından - çox mənalılığından, assosiasiyalardan, söz təkrir və ritmlərindən istifadə bacarığını əks etdirir. Qoşma tərzində yazılmış "Qalmadı" şeirində deyilir:

*"Kərəmi" üstündə çaxdı şimşəklər*
*Qar aldı gədiyi yol da qalmadı*
*Kərəm naləsindən, Əsli ahından*
*Əriyib töküldü, sal da qalmadı.*

***

*Köçə yetişirdi köçüm az qala*
*Bir tərəf sıldırım, bir tərəf qala.*
*Qayadan-qayaya çapdım dörd nala*
*Atın dırnağında nal da qalmadı.*

**(Ardı var)**